# AYIN KİNO MƏNZƏRƏSİ...

### Onların kinosu...




> **Türk filmləri həftəsinin açılışında mədəniyyət və turizm naziri Əbülfəs Qarayev qonaqları salamladı və paytaxtımızda "Türk filmləri həftəsi"nin gözəl bir ənənəyə çevrildiyini vurğuladı. Nazir: "Ulu öndər Heydər Əliyevin söylədiyi "Bir millət – iki dövlət" anlamını biz bu gün daxilən yaşayır və hiss edirik", – dedi. Belə mədəni tədbirlər iki qardaş ölkə arasında böyük əhəmiyyət kəsb edir. Birgə layihələr, mədəniyyətlərimizin bir arada təqdimi böyük töhfələr verəcək.**

### Qardaş türk kinosu

Noyabrın 16-da Nizami Kino Mərkəzində "Türk filmləri həftəsi"nin açılışı oldu. Böyük coşqu, səsli-küylü və qonaqlarla bol açılış gecəsi ondan xəbər verirdi ki, Azərbaycanda türk filmlərinin həvəskarları həddən artıq çoxdur. Layihə Türkiyənin Yerli Düşüncə Dərnəyinin təşkilatçılığı, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Bakı Yunus Əmrə İnstitutunun dəstəyi ilə reallaşdı. Bu, ilk tədbir olmadığı üçün təşkilatçıların Azərbaycan tamaşaçısının kino zövqündən xəbərdarlığı da bəlli idi. Filmlər haqqında söz açmazdan əvvəl açılış mərasimində baş verənlərdən qısaca danışmaq yerinə düşərdi.

Mərasimdə öncə iki qardaş ölkənin şəhid övladlarının ruhu bir dəqiqəlik sükutla yad edildi, dövlət himnləri səsləndirildi.

Daha sonra Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral çıxış etdi. Azərbaycan və Türkiyə qardaş ölkələr olaraq bir-birinin sevincini, kədərini bölüşən və bütün bunları çox yaxından hiss edən, ürəyi bir vuran eyni millətdir. Diplomat qeyd etdi ki, Bakıda üçüncü dəfə keçirilən "Türk filmləri həftəsi" həm də iki ölkənin kino mütəxəssislərinə təcrübə mübadiləsi imkanıdır: "Bir-birimizi daha yaxından tanımaq və anlamaq üçün mədəniyyətlərimizi qarşılıqlı surətdə öyrənməli və öyrətməliyik".





Gecədə çıxışlar Azərbaycan–Türkiyə qardaşlığına yerbəyerdən söylənən şüarlarla davam edirdi. Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Yerli Düşüncə Dərnəyinin sədri, millət vəkili Metin Gündoğdu müasir dövrdə kinonu əlaqənin, tanışlığın ən təsirli vasitələrindən biri kimi xarakterizə etdilər. Gecənin ən maraqlı hissəsi isə həftə çərçivəsində Bakıda qonaq olan türk aktyor və rejissorlarına təşkilat komitəsinin mükafatlarının təqdimatı idi.

Film həftəsinin seansları barədə rejissor Öner Kılıç məlumat verdi. Təşkil edilən film həftəsində azərbaycanlı kinosevərlərə dünya festivallarında mükafatlar almış, tamaşaçılar tərəfindən böyük rəğbət qazanmış filmlər təqdim olundu. Türk filmləri həftəsində Azərbaycan tamaşaçıları "Yeni dünya", "Aşıq", "Bir gün bir uşaq", "Şagird" və s. filmləri izləmək imkanı qazandılar. Həftəboyu Türkiyədən gələn tanınmış aktyor və rejissorlarla görüşlər keçirildi.



### Avropa kinosu...

Noyabrın 2-dən 12-dək Bakıda VIII Avropa film festivalı keçirilib. Festivalın proqramına 18 ölkədən 21 ekran əsəri daxil edilmişdi. Festivalın açılış mərasimi "Park Cinema Bulvar" kinoteatrında baş tutdu. Mərasimdə Avropa İttifaqının (Aİ) Bakıdakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas da iştirak edirdi. O çıxış edərək artıq 8-ci dəfə baş tutan festivalın Azərbaycanın Aİ ölkələri ilə mədəni münasibətlərinin inkişafına kömək olduğunu diqqətə yetirdi. Festivalın ilk günündə "Lümyerlər!" (Fransa) və "Meymun" (Bolqarıstan) filmləri göstərildi.

Rejissor Tyeri Fremonun "Lümyerlər!" filmi kinematoqrafın başlanğıcına səyahət, kino sənətini icad etmiş Lümyer qardaşlarının çəkdikləri filmlərin bərpa edilmiş kadrları ilə zəngin olmasına görə diqqəti çəkdi. Film haqqında film, kino tarixi barədə esse kimi səciyyələndirilən ekran əsərində Tyeri Fremonun özü, məşhur kinorejissor Martin Skorseze çəkiliblər, Lui və Ogüst Lümyer qardaşlarının lentlərindən istifadə edilib.

Festivalın proqramına daxil edilmiş filmlər orijinalın dilində, ingilis və rus dillərində altyazı ilə göstərilirdi.

### Bizim kino..

Noyabr ayının əvvəlində ABŞ-ın Los-Anceles şəhərində keçirilən Asiya Dünya Film Festivalı çərçivəsində Azərbaycanın "Oskar" mükafatına təqdim etdiyi "Nar bağı" filmi nümayiş olunub.




Noyabrın 10-da Nizami Kino Mərkəzində "Yolayrıcında qalmış taksi" qısametrajlı bədii filminin təqdimatı da maraqlı anlarla yadda qaldı. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə "Debüt" studiyasında çəkilən filmin quruluşçu rejissoru Murad Quliyev, ssenari müəllifi Nonna Müzəffərova, quruluşçu operatoru Elxan Rüstəmov, prodüseri Fuad Əzizov, bədii rəhbəri Eldar Quliyevdir. Əsas rollarda Elşən Rüstəmov və Günay Əhməd çəkilib. Təqdimatda xalq artisti, rejissor Eldar Quliyevin tələbəsini tək qoymayaraq dəstək olması, çıxış edərək film haqqında məlumat verməsi tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb.

Noyabrın 17-də Estoniyada Şimali Avropanın ən iri kinofestivallarından biri – "Qaranlıq gecələr" (PÖFF) festivalı reallaşıb. 21-ci dəfə keçirilən festivalın proqramına 70-dən artıq ölkədən filmlər daxil idi. İlqar Nəcəfin Asiya–Sakit Okean Kino Akademiyasının "Young Cinema Award" mükafatına sahiblənmiş "Nar bağı" filmi noyabrın 23-də mükafatın təqdimetmə mərasimində iştirak edib. O artıq ikinci dəfə Asiya–Sakit Okean Kino Akademiyasının mükafatına layiq görülür.

Təqdimatlar, festivallar sırasında bir də gənc rejissorları sevindirəcək kino-xəbər yayıldı. Belə məlum oldu ki, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının elan etdiyi "Zaman və məkan" adlı qısametrajlı sənədli filmlərin ssenari müsabiqəsinin qalibləri müəyyənləşib.

> **Xalq artisti Oqtay Mirqasımın rəhbərlik etdiyi münsiflər heyətinin qərarı ilə 1-ci yer (1500 manat mükafat) üzrə qalib olmayıb. 2-ci yeri (1000 manat) "Şükriyyə, təleyim" ssenarisi (müəllif Cavid Zeynallı), 3-cü yeri (500 manat) "Bakının su əfsanəsi" (Rəşad Şükürov) tutub. Həvəsləndirici "Ümid" mükafatına "Qara qızıl" ssenarisi (Seyran Əmirov) layiq görülüb.**

Bizim kinonun daha bir uğurlu xəbəri rejissor İlqar Nəcəfin "Nar bağı" bədii filminin Türkiyədə, 7-ci Malatya Beynəlxalq Film Festivalında baş mükafatı alması idi.

Ekran əsəri noyabrın 9-dan 16-dək davam edən festivalın tammetrajlı filmlər müsabiqəsində "Ən yaxşı film" seçilərək "Büllur ərik" mükafatını qazanıb. "Nar bağı" filmi strukturuna, poetik dilinə, dərin insanpərvərliyinə, xüsusilə də illərlə yaddaşlardan silinməyəcək son səhnəsinə və yaddaqalan obrazlarına görə təltif edilib.

Beləcə, bizim kino mövzusunu yekunlaşdıraraq sonda onu da qeyd edək ki, rejissor Şamil Əliyevin "Çölçü" bədii filmi Kəlküttə Beynəlxalq Kult Filmlər Festivalının (*CICFF – Calcutta International Cult Film Festival*) "Qızıl tülkü" (*Golden Fox Award*) mükafatının nominantı olaraq iştirak etmək üçün Hindistana dəvət alıb. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında 2012-ci ildə istehsal olunmuş bədii film indiyədək 30-dan çox festivalda iştirak edib, mükafatlara layiq görülüb.

Azərbaycan kinosuna daha möhtəşəm əsərlər və yüksək zövqlü tamaşaçı diləyi ilə...

Lalə Azəri